DOI: https://www.doi.org/10.36719/2663-4619/64/55-58

Fatma Ağası qızı Əsədova
Bakı Slavyan Universiteti
müəllim
fatya.asadova @ mail.ru
orcid id: 0000-0002-2586-9226

FƏAL TƏLİM TƏHSİL İSLAHATININ TƏLƏBİ KİMİ

***Açar sözlər**: fəal təlim, qloballaşan dünya, təhsil islahatı, əməkdaşlıq, fərdiləşdirmə*

Active training-as a requirement of educational reform

Summary

In every society, education has served ensuring the interests of the people as a social process. This is so because man is not for education, education is for man. The education reform implemented in the country is aimed at creating a National Education System and is based on the most preferred principles of democratization, humanization, integration, differentiation, individualization and a number of principles in modern times. The implementation of these principles implies that the student becomes a key participant in the educational process, forming him as a personality.

As time changes, so does the education system. Curricula, the content of education and training methods must also change. Active training methods are one of the most important training methods in the field of education in our globalized world.

***Key words:** active training, globalizing world, education reform, cooperation, individualization*

Hər bir cəmiyyətdə təhsil ictimai proses kimi insanların maraqlarının təmin olunmasına xidmət etmişdir. Bu belədir, çünki insan təhsil üçün deyil, təhsil insan üçündür. Ulu öndərimiz Heydər Əliyevin təbirincə desək, "Təhsil sahəsi müqəddəs bir sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur". Onu daim təkmilləşdirmək, yeniləşdirmək, zamanın uğurlarını qabaqlayan bir vasitəyə çevirmək zəruridir. (7, s.3)

Qloballaşan çağdaş dünyamızda bəşəriyyət üçün tamamilə yeni olan problemlər yaranmışdır. Problemlərin həlli təhsildə mütləq əsaslı dəyişikliklərin aparılmasını, onun müasir cəmiyyətin maraqlarına uyğunlaşdırılmasını vacib edir. Dəyişikliklər təhsilin məzmunundan, strukturundan tutmuş təlim metodlarınadək, demək olar ki, bütün sahələri əhatə etməlidir.

Respublikada həyata keçirilən təhsil islahatı Milli Təhsil Sisteminin yaradılmasına yönəldilmişdir və onun əsasında müasir zamanda ən çox üstünlük verilən demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, differensiallaşdırma, fərdiləşdirmə və bir sıra prinsiplər durur. Bu prinsiplərin həyata keçirilməsi şagirdin təlim-tərbiyə prosesinin əsas iştirakçısına çevrilməsi, onun şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur.

Demokratikləşdirmə-təhsildə maraqlı olan tərəflərin, dövlət strukturlarının, ictimaiyyətin təhsil prosesində fəai iştirakı, tədris müəssisələrində şəffaflığın təmin edilməsidir.

Humanistləşdirmə-şagirdə münasibəyin dəyişdirilməsinin, onun maraqlarının önə çəkilməsinin, humanist şəxsiyyət kimi formalaşmasının, əqli və fiziki imkanlarından, qabiliyyətindən asılı olmayaraq şəxsiyyətinə hörmətlə yanaşılmasının, istedad və bacarığının üzə çıxarılması və inkişafına şərait yaradılmasının nəzərdə tutulmasıdır.

Humanitarlaşdırma – təhsilin məzmununa yeni baxış, tədris edilən fənlərdə bəşəri dəyərlərə geniş yer verilməsi, milli – mədəni, tarixi dəyərləri dərindən öyrənməklə dünyəvi dəyərlərdən bəhrələnməyin əsas götürülməsi, bunların şəxsiyyətin imkişafının vacib şərti hesab edilməsidir.

İnteqrasiya – müxtəlif fənlərin tədrisi zamanı onların arasında təbii mövcud olan əlaqələrdən istifadə edərək şagirdlərdə qlobal düşüncə tərzinin, həmrəylik və məsuliyyətin formalaşdırılmasının mümkünlüyünün nəzərdə tutulmasıdır.

Differensiallaşdırma dedikdə hər bir şagirdin fərdi xüsusiyyəti və imkanlarının nəzərə alınması başa düşülür.

Fərdiləşdirmə - ayrıca götürülmüş hər bir fərdin şəxsi maraq, az\rzu və istəyinin, onun tələbatlarının əsas götürülməsidir. (6, s.7)

"Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı"nda göstərildiyi kimi fəal təlim üsullarından istifadə bu prinsiplərin həyata keçirilməsi yollarından biridir.

Fəal təlimin tətbiqini zəruri edən amillər hansılardır? Təlim üsulları təlim prosesinin səmərəliliyinə təminat yaradan faktordur. Zaman dəyişdikcə, təhsil sistemi də dəyişir. Tədris proqramları, təhsilin məzmunu və təlim üsulları da dəyişməlidir. Fəal təlim üsulları qloballaşan dünyamızın təhsil sahəsində əhəmiyyət verdiyi təlim metodikalarındandır. Fəal təlimin peşəkarlıqla tətbiq edilməsi məktəbdə şəraiti, şagirdin təhsilə münasibətini dəyişir, pozitiv və fəal həyat mövqeyini formalaşdırmağa şərait yaradır. Bu üsullar biliklərin müstəqil mənimsənilməsi və yeniliklərin kəşf edilməsi, qazanılmış biliklərin yaradıcılıqla yenidən işlənməsi, problemi həll etmək üçün yoldaşları ilə əməkdaşlıq etməyi bacarmaq, özünürealizə yollarını axtarıb tapmaq kimi keyfiyyətlərin əldə edilməsinə şərait yaradır. Təlim prosesində fəal təlim metodlarından istifadə edilməsi şagirdlərin təhsilə biganəliyinin aradan qaldırılmasına, lazımi təfəkkür xüsusiyyətlərinin formalaşmasına, ümumiyyətlə, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Təlimin səmərəliliyinin artırılması yollarından ən effektlisi biliklərin verilməsi zamanı şagirdin yaradıcı təfəkkürünü işə salmaq, ona istinad etməkdir. Şagird yaradıcı təfəkkürünü fəallaşdırmaqla, onun yeni biliklərə müstəqil yiyələnməsinə şərait yaradan ənənəvi metodlardan keyfiyyətcə fərqlənən interaktiv təlim üsulları idrak fəaliyyətinin təşkil və idarə olunması üsulları olub, müəllim tərəfindən idraki problem – situasiyanın yaradılması, problem – situasiyanın həlli zamanı şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsi və şagird üçün maraqlı və yeni biliklərin müstəqil kəşf edilməsi və mənimsənilməsi ilə xarakterizə edilir.

İnteraktiv təlimdə mexaniki yaddaş deyil, təfəkkürün inkişafı, şagirdlərin fəal dərketmə mövqeyi, biliklərin müstəqil əldə edilməsi, tədqiqat və dərketmə üçün müvafiq şəraitin yaradılması, təbii öyrənmə fəallığının artırılmasına təkan verən problemli şəraitin yaradılması, biliklərin yaradıcı tətbiqi, ətrafdakılarla əməkdaşlıq etmək bacarığı, təfəkkürün müstəqilliyi və sərbəstliyi vacib amillərdəndir.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının yalnız yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi ilə,xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb – nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. İnteraktiv təlim prosesində şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı", "araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, bir subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Müəllimin mövqeyi – fasilitator (bələdçi, aparıcı) daha çox istiqamətverici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

Yeni kurikulumlarla iş prosesində ən zəruri amillərdən biri kimi bütün müəllimlərin fəal təlim metodlarından istifadə bacarıqlarına yiyələnməsi mühüm vəzifələrdəndir.

Ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir.

Hamıya məlum olduğu kimi, hər hansı bir məlumat real həyatda tətbiq edilən zaman biliyə çevrilir. Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanılması yox, verilən məlumatların yadda saxlanılması təşkil edir. Eyni zamanda, ənənəvi təlim prosesində biliklərin praktik tətbiqini təsəvvür etmək üçün şagirdə müvafiq imkanlar yaradılmır. Dərsin məzmunu, adətən daha çox nəzəri öyrənilir və həyatın tələbatlarına uyğunlaşdırılmır.Şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç kim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımı səviyyədə dərk edəcək. Şagirdin hazır bilikləri mənimsəməsi nəinki onun təfəkkürünün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini kütləşdirir, uşağı yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Nəticədə təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətinin və hafizəsinin inkişaf səviyyəsi, idrak motivasiyasının olub – olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur.

Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya – kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək, əslində qeyri-mümkün işə çevrilir. Əgər əvvəllər bilikləri əldə etmək üçün şagirdi iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr çoxsaylı məlumat mənbələri ilə müqayisədə geridə qalır. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi

öyrətməkdir, yəni şagirdləri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir, biliklərdən çox biliklərin əldə edilməsi yollarını öyrətməkdir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təkim böyük səmərə verə bilər. Eynizamanda, şəxsiyyətyönümlü tədris prosesi inkişaf proseslərinin keyfiyyətinə də təsir edəcək: idraki və sosial fəallığı artırmaqla şəxsiyyətin dəyərlərini və vərdişlərini formalaşdıracaqdır.

İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Təlimin səmərəliliyi (daha az müddətdə daha çox informasiyanı mənimsəmək imkanı) xeyli artır: şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası hesabına; təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində. Bu metodla keçilən dərslər şagirdlər üçün çox maraqlı və cəlbedici olur. Fəal interaktiv təlim həm təlimin məzmununun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Şagirdlərin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, müəllimin zəhməti azalır. İnteraktiv təlim əslində dərsin hazırlanması və idarə edilməsi üçün müəllimdən böyük zəhmət , işgüzarlıq və yaradıcılıq tələb edir.

Qeyd etmək lazımdır ki, interaktiv təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək məsləhət görülmür. Dərsdə qarşıya qoyulan məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla interaktiv priyomlara müraciət edilməlidir. İnteraktiv metodlar təlimin keyfiyyətini xeyli dərəcədə yüksəldir, şagirdlərdə yeni idraki və əxlaqi keyfiyyətlər formalaşdırır. Məsələn; söylənilən fikirlərə hörmət etməyi, müstəqil, tənqidi və yaradıcı düşünməyi, kollektivin fikrinin formalaşmasında fəallıq, işgüzarlıq göstərməyi, birgə qərar verməyi, emosional situasiyada özünü ələ almağı, özünü idarə etməyi, ədalətləyanaşmağı bacarmaq və s. İnteraktiv metodlarla keçilən dərslərdə şagirdlərdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır, nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir. İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyələnməyə, cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarığının inkişafına kömək edən demokratik üsullarla aparılan təlim prosesidir. İnteraktiv təlim prosesində dərsdə yaranan, meydana çıxan şagirdlərarası öyrənmə - öyrətmə ünsiyyəti və əməkdaşlığı, müəllim – şagird birliyi və əməkdaşlığı nəzərdə tutulur. İnteraktiv metodlar təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir. İnteraktiv təlim prosesində ilk baxışdan elə görünə bilər ki, müəllim sinifdə fəal rol oynamır. Əslində isə müəllim şagirdi ruhlandıran, ona özünü tapmaqda kömək edən "yaradıcıya" çevrilir. İnteraktiv metodlar müəllimin təkcə başqalarını öyrətməsinə deyil, onun özünün öyrənməsinə, daha yaradıcı və enerjili pedaqoq olmasına imkan verir.(5)

Fəal təlim zamanı müəllim və şagirdlər qoyulmuş təlim problemini birgə qarşılıqlı fəaliyyət əsasında həll etməyə çalışır, əməkdaşlıq edir. Dərs kiçik tədqiqata bənzəyir, şagirdlər bilikləri müstəqil əldə edir, müəllim isə şagirdləri lazımi istiqamətə yönəldir. Biliklərin müstəqil kəşf və mənimsəməsi üçün müəllim lazımi şərait yaradır: fikri təhrik edir, məlumatla təmin edir, təşkilatı və psixoloji dəstək verir. Bütün dərs ərzində şagirdlərin fəal dərketmə mövqeyinin saxlanması üçün müəllim təfəkkürünü formalaşmasına əsaslanır. Müəllim şagirdlərə hörmətlə və etimadla yanaşır, şagirdlər arasında da qarşılıqlı hörmət münasibətini dəstəkləyir.

İnteraktiv təlim metodlarının tətbiqi müasir dövrün şagirdlərinə bir sıra geniş imkanlar yaradır. Belə ki, müasir məktəbin şagirdləri əvvəlki şagirdlərlə müqayisədə, qarşıya çıxmış problemləri həm tək, həm də qrup və kollektivlə həll etmək bacarığına malikdirlər. İndi texnologiyanın inkişafı şagirdlərə lazımi informasıyanı geniş məlumat mənbələrindən əldə etməyə imkan verir. Şagirdlərin axtarıcılıq və müstəqillik vərdişləri formalaşır, qazanılmış biliklər uğurla təcrübədə tətbiq edilir.

Fəal təlim şagirdlərin idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Fəal təlimdə müəllim və şagirdlərin hüquqları bərabər olduğundan müasir təlim metodları demokratik metod sayılır. Yeni yanaşmanın mahiyyəti onunla ifadə olunur ki, şagirdlərin yaddaşı hazır informasiya ilə zənginləşdirilmir, biliklər müstəqil qazanılır, təfəkkür inkişaf etdirilir.

Dərsdə interaktiv təlim metodlarının və üsullarının tətbiqi tədris prosesinin intensivliyini yüksəldir, tədrisi hər bir şagird üçün əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın daim yüksək olmasına zəmin yaradır və nəticədə təlimin inkişafetdirici yönümünü xeyli dərəcədə gücləndirir.

İnteraktiv təlim metodları hər bir mövzunun xarakterinə uyğun tətbiq edilir və dərslərin maraqlı keçməsində müstəsna rol oynayır. Fəal təlimin ən böyük üstünlüyü ondadır ki, bu üsul gənclərə daim dəyişən şəraitə

uyğunlaşmaq bacarığı verir, onların cəmiyyətə, böyüklərin dünyasına sərbəst və rahat daxil olmalarına imkan yaradır.

Ədəbiyyat

1. Abbasov Ə. Yeni kurrikulumların səciyyəvi xüsusiyyətləri. "Kurrikulum" jurnalı, 2008, №1.
2. Azərbaycan Respublikasının Milli Kurikulumu. kurikulum@mail.ru
3. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, Hüquq ədəbiyyatı, 2009
4. Azərbaycan Respublikasının ümumi təhsilin konsepsiyası (Milli Kurikulum). Azərbaycan məktəbi jurnalı, 2007, №2.
5. Bədiyev S.R. Yeni təlim texnalogiyaları. Mühazirə mətnləri, Bakı, 2009
6. Həyati bacarıqlara əsaslanan təhsil, müəllimlər üçün tədris vəsaiti, Bakı, "Çaşıoğlu",2009
7. Kurrikulumların hazırlanması və tətbiqi məsələləri. Metodik tövsiyə. Bakı, "Kövsər", 2008
8. Qəhrəmanov A. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı, Bakı, 2012.
9. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, "Mütərcim", 2007.

Rəyçi: dos. S.Qafarova

Göndərilib: 15.03.2021 Qəbul edilib: 22.03.2021